**"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli, 91 nömrəli qərarına əlavələr edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli, 91 nömrəli qərarının "Azərbaycan Respublikası ərazisinə gətirilən mallar üzrə gömrük rüsumlarının dərəcələri" əlavəsində 70-ci mal qrupunda 1-ci sütunda "7010" mal mövqeyindən, 2-ci sütunda onun adından və 3-cü sütundakı gömrük rüsumu dərəcəsindən sonra 1-ci, 2-ci və 3-cü sütunlarda müvafiq olaraq "701110" rəqəmi, "Yalnız elektrik lampalarının istehsalı üçün idxal olunan şar və boru formasında olan şüşə kolbalar" sözləri və "0" rəqəmi, 85-ci mal qrupunda isə 1-ci sütunda "8538" mal mövqeyindən, 2-ci sütunda onun adından və 3-cü sütundakı gömrük rüsumu dərəcəsindən sonra 1-ci, 2-ci və 3-cü sütunlarda müvafiq olaraq "853990100" rəqəmi, "Lampaların sokolları" sözləri və "0" rəqəmi əlavə edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 25 sentyabr 2000-ci il**

**№ 173**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 30 sentyabr, № 9.- S. 4209.**